# Yeni çağırışlar, cəmiyyətin gözləntiləri parlamentin yeniləşməsini zəruri edib

## Növbədənkənar parlament seçkilərinin keçirilməsi davamlı inkişafa, təkmil qanunların qəbuluna böyük töhfə olacaq




**11 aprel 2018-ci il prezident seçkilərində xalqın böyük əksəriyyətinin dəstəyini qazanaraq növbəti 7 il üçün Azərbaycanın davamlı inkişafına, yeni-yeni hədəflərin gerçəkləşməsinə yol açan dövlətimizin başçısı İlham Əliyev andiçmə mərasimində son 15 ildə kifayət qədər uğurların, nailiyyətlərin əldə olunduğunu önə çəkərək bildirmişdir ki, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, gələcəyə baxmalıyıq və baxırıq:**

"Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var... Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar." Ölkə Prezidentinin proqram xarakterli bu çıxışı bu günümüzün və qarşıdakı illərin prioritetlərinin aydın mənzərəsini yaratmaqla yanaşı, təkmilləşmənin, dövrün tələbinə uyğun olaraq yeniləşmənin davamlı inkişafı şərtləndirən əsas amil olmasını bir daha açıqlayır. 2019-cu ilin ilk aylarından başlayaraq atılan biri-birindən əhəmiyyətli addımlar, dövlətimizin başçısı İlham Əliyevin təsdiqlədiyi və 4 milyondan artıq insanı əhatə edən iki sosial paket, həmçinin həyata keçirilən struktur və kadr islahatları cari ilin daha böyük göstəricilərlə tariximizə yazılacağına əminliyi daha da artırdı. Bütün bu addımların əsasında təbii ki, "güclü dövlət, yüksək rifah" prinsipi dayanır. Bu islahatların əhatə dairəsinə diqqət yetirdikdə bütün sferaları özündə birləşdirdiyi diqqətdən kənarda qalmır. Qeyd etdiyimiz kimi, məhkəmə-hüquq, dövlət idarəçiliyi, qanunvericilik, kadr siyasəti də daxil olmaqla bütün sahələr bu islahatların əhatəsində olmaqla bütövlükdə ölkəmizin hərtərəfli inkişafına dəstək kimi dəyərləndirilir. İslahatlar kursu dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması, səmərəliliyinin artırılması, qərarların icrası mexanizminin müasir tələblərə uyğunlaşdırılması və yeni keyfiyyət mərhələsinə yüksəldilməsi məqsədi daşıyır.

İslahatlar kursu ölkədə ali icra hakimiyyətini həyata keçirən Azərbaycan Prezidentinin Administrasiyasının işinin təkmilləşdirilməsini, dəyişikliklərə, yeni çağırışlara uyğunlaşdırılmasını tələb edirdi. Administrasiyanın təsdiq olunmuş yeni strukturu bu istiqamətdə atılan uğurlu addımdır. Prezident Administrasiyasının yeni strukturu səmərəli idarəçiliyi, qərarların çevik qəbulunu və onların icrasına nəzarətin gücləndirilməsini təmin edəcək. Struktur bölmələrinin fəaliyyət sahəsi, vəzifələri dəqiq ifadə olunur, təkrarçılıq istisna edilir. Təsdiq olunmuş struktur müasir dövrün çağırışlarına uyğun yeni istiqamətləri və fəaliyyət sferalarını nəzərdə tutur.

Aparılan struktur islahatlar hakimiyyətin bütün qollarının səmərəliliyinin artırılmasını və ictimaiyyətin etimadının daha da yüksəlməsini təmin edəcək. Müasir dövrün yeni çağırışlarına cavab vermək, ölkə qarşısında duran vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsini təmin etmək, cəmiyyətin gözləntilərini doğrultmaq məqsədilə idarəetmə sisteminin keyfiyyətinin yüksəldilməsi və dövlət aparatının optimallaşdırılması istiqamətində atılan addımlar əhali tərəfindən müsbət qarşılanır. Daim özünə diqqət və qayğının şahidi olan, irəli sürülən təşəbbüslərin, qəbul olunan qərarların uğurlu gələcəyimizə xidmət etməsindən böyük qürur hissi keçirən ölkə ictimaiyyəti atılan son addımlardan öz məmnunluğunu ifadə edir. Əsas olan budur ki, müstəqilliyinin 28 ilini arxada qoyan Azərbaycan beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyini qoruyur, ən islahatçı ölkələr sırasında yer alır. Belə islahatçı ölkənin xalqı isə dünyanın 10 xoşbəxt xalqı sırasında təmsil olunur. Bütün bunların ümumiləşdirilmiş ifadəsi, həyata keçirilən inkişaf strategiyasının gələcəyə hesablanması, inkişaf modelimizin dünyada təqdir olunması, öyrənilməsinin vacibliyi barədə söylənilən fikirlərin dövlətimizin siyasətinə dəstək kimi dəyərləndirilməsidir.

Bütün bu uğurlara söykənərək ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, nəinki ölkənin, bölgənin aparıcı siyasi təşkilatına çevrilən, yeniliyi, təkmilləşməni fəaliyyətinin əsas prinsipi kimi qəbul edən Yeni Azərbaycan Partiyasının Siyasi Şurası, eyni zamanda, partiyanı Milli Məclisdə təmsil edən deputat qrupu parlamentin buraxılması, növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı təşəbbüslə çıxış etdi və qərar qəbul olundu. Həmin qərara əsasən qeyd olunan məsələ dekabrın 2-də Milli Məclisdə müzakirə olunaraq, parlamentdə təmsil olunan çoxluğun, Yeni Azərbaycan Partiyasını təmsil edən deputatların ümumi rəyinə və dəstəyinə uyğun olaraq dövlətimizin başçısı İlham Əliyevə müraciətlə bağlı qərarın qəbul edilməsi ilə yekunlaşdı.

Milli Məclis, Prezident Administrasiyası, Nazirlər Kabineti, idarəetmə orqanları, dövlət həyatının bütün sahələrində həyata keçirilən islahatlar cəmiyyətdə rəğbətlə qarşılanır. Qeyd edək ki, Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsinə görə, Milli Məclis bu cür məsələləri müzakirə edib qərar qəbul etmək səlahiyyətinə malikdir. Dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı Konstitusiya Məhkəməsinə sorğu göndərib. Həmin tarixdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Palatasının növbəti iclasında Milli Məclisin buraxılmasının Konstitusiyaya uyğunluğu barəsində Azərbaycan Prezidentinin sorğusuna baxılaraq, Plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb. Sorğuya Konstitusiya Məhkəməsi Plenumunun dekabrın 4-nə təyin edilmiş iclasında baxılacaq.

Atılan bu mütərəqqi addım Azərbaycan tarixində ilk olsa da, dünya praktikasında tez-tez rast gəlinən hadisədir. Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinə görə, Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir, parlament seçkisi hər beş ildən bir - noyabr ayının birinci bazar günü keçirilir. Hazırkı parlament 2015-ci il noyabrın 1-də seçilib. 2016-cı ildə Konstitusiyaya əlavə olunmuş 98-1-ci maddəyə görə, ölkə Prezidenti Milli Məclisi buraxa bilər. Bu, Milli Məclisin eyni çağırışının bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərməsi; Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin və Mərkəzi Bankın İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri qanunla müəyyənləşmiş müddətdə təyin etməməsi; Konstitusiyada göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etməməsi hallarında mümkündür.

Əvvəldə də qeyd etdiyimiz kimi, dövlətimizin başçısı İlham Əliyevin həyata keçirdiyi islahatlar kursu dövlət idarəetmə sisteminin bütün istiqamətlərini əhatə edir. Yeniləşmə, təkmilləşmə, şəffaflığın yüksək səviyyədə təminatı dövlət siyasətinin əsasını təşkil edir. Dünyaya səs salan "ASAN xidmət", ABAD, DOST kimi layihələr şəffaflığın təminatına, vətəndaş məmnunluğunun artırılmasına nə qədər böyük önəm verildiyini bir daha açıqlayır. Azərbaycan beynəlxalq aləmdə innovasiyalar ölkəsi kimi tanınır və nüfuz qazanır. Ötən il robort "Sofiya"nın ölkəmizə səfəri, Azərbaycanı yeniliklərə imza atan ölkə kimi təqdir etməsi dövlətimizin həyata keçirdiyi təkmil islahatlara bir daha işıq saldı. Cənab İlham Əliyev daim bildirir ki, dünyanın qabaqcıl ölkələrində tətbiq olunan bütün yeniliklər ölkəmizdə də tətbiq edilməli, Azərbaycan bütün sahələrdə nümunə olmalıdır. Bazar iqtisadiyyatının aparıcı qüvvəsi kimi kiçik və orta sahibkarlığın inkişafına dəstəkdən irəli gələn ABAD mərkəzlərinin coğrafiyasının genişləndirilməsi, özünüməşğulluq proqramının uğurlu icrası kimi mühüm addımlar əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə geniş imkanlar açır. Bu kimi təkmil islahatların sayəsində ölkəmizin iqtisadi qüdrəti artır, maliyyə imkanları genişlənir, dövlət büdcəsinin sosialyönümlülüyü daha çox diqqət çəkir. Cənab İlham Əliyev daim bildirir ki, qarşıdakı ilin dövlət büdcəsi arxada qalan ilin büdcəsindən kəmiyyət və keyfiyyət baxımından daha üstün olmalıdır. 2019-cu ilin dövlət büdcəsi zərfində bu kimi məqamlar öz əksini tapıb.

Bütün sahələri əhatə edən təkmilləşmə, yeniləşmə, insan amilinə dəyərdən qaynaqlanan addımlar ümumilikdə həm məhkəmə-hüquq, həm də icra hakimiyyəti qollarında səmərəliliyin, şəffaflığın artırılmasına, bürokratik əngəllərin, Azərbaycan Prezidentinin öz çıxışlarında qeyd etdiyi mənfi halların aradan qaldırılmasına etibarlı zəmin yaradır. Ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanan parlamentin buraxılması, növbədənkənar parlament seçkilərinin keçirilməsi kimi mühüm addım Azərbaycanın bugünkü inkişaf səviyyəsinə, həm də müasir dövrün çağırışları və qarşıda duran vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə adekvat olmalıdır.

İctimai rəyin təhlili onu deməyə əsas verir ki, Milli Məclisin bugünkü tərkibi islahatlar kursunun dinamikasına uyğun deyil, qanunvericilik təşəbbüslərinin, rasional təkliflərin irəli sürülməsində süstlük müşahidə olunur. Aparılan islahatların məntiqi tələb edir ki, xalqın parlamentə etimadı daha yüksək olmalı, bu etimaddan islahatların reallaşdırılması naminə istifadə edilməlidir. Qarşıya çıxan yeni çağırışlar, cəmiyyətin gözləntiləri və digər amillər qanunvericilik hakimiyyətində də islahatların dərinləşməsi, parlamentin yeniləşməsini zəruri edib.

Zaman amili islahatların sürətini, dərinliyini, səmərəliliyini təmin etmək, ölkənin inkişafı, xalqın rifahının yüksəldilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin vaxtında icrasına nail olmaq üçün başlıca faktorlardan biridir. Seçkilərin vaxtının önə çəkilməsi müasir çağırışlara adekvat parlamentin formalaşmasını sürətləndirir və islahatlar prosesinin davamına yeni impuls verir. Ən əsası parlamentin yenilənməsi, müasirləşməsi ölkəmizin hərtərəfli inkişafına yol açan qanunların qəbulunda da özünü qabarıq şəkildə nümayiş etdirəcək. Bu baxımdan ki, dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bəyan edir ki, kadr hazırlığı iqtisadi inkişafın bugünkü səviyyəsi ilə uyğunlaşmalıdır.

Müasir dövrün əsas çağırışı yenilikçi gəncliyin öz bilik və bacarıqlarını daha da artırmaları, idarəçilik sistemində iştirakçılar və təşəbbüskarlar olmaları ... daha da inkişafına, çiçəklənməsinə, yeni-yeni hədəflərin gerçəkləşməsinə öz töhfələrini verməlidir. İctimai rəyin təhlili bu qənaətə də əsas verir ki, daim inkişafa, təkmilləşməyə meyilli mütəxəssislərin parlamentdə təmsilçiliyi qarşıya qoyulan və bu günümüzün tələbləri ilə səsləşən hədəflərin gerçəkləşməsinə xidmət edən təkmil qanunların qəbulunda əhəmiyyətli rol oynayacaq.

Atılan addımlar, tərəqqi, yeni dövrə uyğunlaşmaq, təkamül kimi dəyərləndirilən təkmil islahatlar dövlətimizin başçısı İlham Əliyevin "Hara baxsaq, hansı sahəyə baxsaq, biz inkişaf, nəticə və uğur görürük. Nəyə görə? Çünki bizim siyasətimiz xalq tərəfindən dəstəklənir... Xalq-iqtidar birliyi bütün bu uğurları mümkün edir" fikirlərinin ümumiləşdirilmiş ifadəsidir.

Y.Cəlilqızı,
*"İki sahil"*